Kişilər arasında
Azərbaycan çempionatının

**Ə S A S N A M Ə S İ**

**1. Təşkilatçılar:**

1.1. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi

1.2. Azərbaycan Şahmat Federasiyası

**2. Keçirilmə tarixi və yeri:**

2.1. Azərbaycan çempionatı 31 yanvar-15 fevral 2025-ci il tarixlərində keçiriləcək.

2.2. Çempionatın keçirilmə yeri təyin olunacaq.

**3. İştirakçılar:**

3.1. Çempionata aşağıdakı cədvəldə göstərilən tələbləri ödəyən şahmatçılar buraxılır:

| S/s | Tələb olunan göstəricilər | Buraxılır |
|---|---|---|
| 1. | 2024-cü ilin kişilərdən ibarət milli yığma komandasının üzvləri | 5 yer |
| 2. | 2024-cü ilin Azərbaycan çempionatının yarımfinalçıları (finalçılar millinin üzvü olduğu üçün bu kateqoriyaya 2 yer verilir) | 2 yer |
| 3. | FİDE-nin reytinq cədvəlinə əsasən ən yüksək reytinqli şahmatçılar (dekabr/2024) | 14 yer |
| 4. | I dəstədə ən yüksək nəticə göstərən şahmatçılar | 5 yer |

3.2. İştirakçıların seçimi yuxarıdakı cədvəlin ardıcıllığına əsasən aparılır.

3.3. Cədvəlin 1-2-ci sətirlərində qeyd olunan göstəricilərə sahib şahmatçılardan biri (və ya bir neçəsi) hər hansı bir səbəblə çempionatda iştirak etməzsə həmin sayda vəsiqə reytinqə görə ayrılan saya əlavə olunur.

3.4. Cədvəlin 1-2-ci sətirlərində qeyd olunan göstəricilərə sahib şahmatçılar reytinqə görə (3-cü sətir) ayrılan saya daxil edilmir.

3.5. Əgər iki şahmatçının reytinqi bərabər olarsa həmin şahmatçılardan son 6 ay ərzində ən çox oyun sayına (klassik partiya) sahib olan şahmatçı üstün tutulur.

3.6. Əgər burada da bərabərlik pozulmazsa, son 12 ayın cəmində daha çox reytinq artıran (klassik partiyalarda) şahmatçı üstün tutulur.

3.7. Burada da göstəricilər eyni olarsa hər dəfə 1 ay əlavə olunmaqla qalib müəyyənləşənədək reytinq artımları cəmlənməyə davam edir.

3.8. I dəstədən vəsiqə qazanan şahmatçılardan hər hansı biri (və ya bir neçəsi) iştirak etməzsə müvafiq olaraq növbəti yeri (və ya yerləri) tutan şahmatçı çempionata buraxılır.

**4. Qeydiyyat:**

4.1. Əsasnamənin 3.1-ci bəndinin 1-3-cü sətirlərinin tələblərinə uyğun oyunçuların iştirakı müqavilə ilə tənzimlənir.

4.2. 3.1-ci bəndinin 1-2-ci sətirlərinin tələblərinə uyğun oyunçuların qeydiyyatı 9-16 oktyabr 2024-cü il tarixləri aralığında aparılır. Şahmatçı tərəfindən imzalanmış müqavilə 16 okyabr 2024-ci il tarixədək AŞF-nin elektron ünvanına göndərilməlidir. AŞF həmin şahmatçıların siyahısını 18 okyabr 2024-ci il tarixdən gec olmayaraq özünün internet səhifəsində elan edir.

4.3. Əsasnamənin 3.1-ci bəndinin 3-cü sətirinin tələblərini ödəyən şahmatçıların qeydiyyatı 3-10 dekabr 2024-cü il tarixləri arasında aparılır. Şahmatçı tərəfindən imzalanmış müqavilə 10 dekabr 2024-cü il tarixədək AŞF-nin elektron ünvanına göndərilməlidir.

4.4. Əsasnamənin 3.1-ci bəndinin 1-3-cü sətirlərinin tələblərini ödəyən şahmatçıların ümumi siyahısı 11 dekabr 2024-cü il tarixindən gec olmayaraq AŞF-nin internet səhifəsində yerləşdirilir və 26 nəfərlik iştirakçı siyahının tamamlanması üçün 1-ci dəstə yarışının keçirilməsi barədə elan verilir.

## 5. Çempionatın keçirilmə qaydaları və sistemi:

### 5.1. Format:

5.1.1. Çempionat olimpiya sistemi ("knock-out"/uduzan çıxır) üzrə 26 şahmatçının iştirakı ilə 5 turdan ibarət olmaqla FİDE oyun qaydaları əsasında keçirilir.

5.1.2. Turun hər bir matçı 2 klassik partiyadan (ağ-qara) və burada qeydə alına biləcək bərabərlik halında tay-breklərdən ibarətdir (tay-brek - ətraflı 5.6-cı bənddə).

5.1.3. Sonuncu Azərbaycan çempionu və ən yüksək reytinqli 5 şahmatçı çempionata birbaşa 1/8 mərhələdən qoşulur.*

5.1.4. Turlara nisbətən iştirakçı sayı cədvəli:

| Turlar | | İştirakçı sayı |
|---|---|---|
| Tur 1 - 1/16 mərhələ | | 20 |
| Tur 2 - 1/8 mərhələ | | 10+6* |
| Tur 3 - 1/4 mərhələ | | 8 |
| Tur 4 – yarımfinal | | 4 |
| Tur 5 | 3-cü yer uğunda | 2 |
| | Final | 2 |

### 5.2. Püşkatma:

5.2.1. Püşkatma çempionatın başlamasına ən geci 2 gün qalmış AŞF-nin internet səhifəsində elan olunacaq.

5.2.2. Püşkatma zamanı iştirakçıların sıralaması FİDE-nin standart reytinq göstəricilərinə (yanvar-2025) əsasən aparılır.

5.2.3. Püşkatma elan olunduqdan sonra çempionatda iştirak edə bilməyən oyunçu heç bir halda əvəzlənmir və rəqibi avtomatik olaraq növbəti mərhələyə adlayır.

5.2.4. Rəng üçün püşk seçimi açılış mərasimi zamanı həyata keçiriləcək.

5.2.5. Reytinqə görə 1 nömrəli şahmatçının seçdiyi rəng 1-ci turda reytinq sıralamasındakı bütün tək rəqəmli oyunçulara şamil olunur.

5.2.6. 2-ci tura yüksəlmiş yüksək reytinqli şahmatçı 1-ci turda oynadığı rəngi dəyişəcək. Əgər qarşılaşmada nisbətən aşağı reytinqli şahmatçı növbəti mərhələyə keçərsə, bu zaman o öz rəqibinin nəzərdə tutulan rəngi ilə növbəti turlara davam edir.

5.2.7. 3, 4, 5-ci turlarda da 5.2.6 bölməsində göstərilən məntiqlə rənglər müəyyən olunacaq.

5.2.8. Tay-breklərdə rəng seçimi bu əsasnamənin 5.6 bəndində qeyd edilir.

5.2.9. Turlar üzrə qarşılaşmalar aşağıdakı ardıcıllığa əsas qurulur:

***Tur 1***

***1/16 mərhələ***

| | | | |
|---|---|---|---|
| Matç 1: №1-keçid* | Matç 2: №2-keçid* | Matç 3: №3-keçid* | Matç 4: №4-keçid* |
| Matç 5: №5-keçid* | Matç 6: №6-keçid* | Matç 7: №7-№26 | Matç 8: №8-№25 |
| Matç 9: №9-№24 | Matç 10: №10-№23 | Matç 11: №11-№22 | Matç 12:№12-№21 |
| Matç 13: №13-№20 | Matç 14: №14-№19 | Matç 15: №15-№18 | Matç 16: №16-№17 |

***Tur 2***

***1/8 mərhələ:***

| | | | |
|---|---|---|---|
| Matç 1: M1-M16 | Matç 2: M2-M15 | Matç 3: M3-M14 | Matç 4: M4-M13 |
| Matç 5: M5-M12 | Matç 6: M6-M11 | Matç 7: M7-M10 | Matç 8: M8-M9 |

***Tur 3***

***1/4 mərhələ***

| | | | |
|---|---|---|---|
| Matç 1: M1-M8 | Matç 2: M2-M7 | Matç 3: M3-M6 | Matç 4: M4-M5 |

***Tur 4***

***Yarımfinal:***

| | |
|---|---|
| Matç 1: M1-M4 | Matç 2: M2-M3 |

***Tur 5***

***3-cü yer uğrunda və final matçları:***

| | |
|---|---|
| 3-cü yer uğrunda: | M1-M2 cütünün məğlubları |
| Final: | M1-M2 cütünün qalibləri |

**5.3. Çempionatın cədvəli:**

| Yarış günü | Tarix | Saat | Tədbir | |
|---|---|---|---|---|
| 1-ci gün | 31 yanvar 2025 | 15:00 | Açılış mərasimi, püşk-rəng seçimi, texniki toplantı | |
| 2-ci gün | 1 fevral 2025 | 15:00 | Tur 1 | 1-ci oyun |
| 3-cü gün | 2 fevral 2025 | 15:00 | | 2-ci oyun |
| 4-cü gün | 3 fevral 2025 | 15:00 | | Tay-brek |
| 5-ci gün | 4 fevral 2025 | 15:00 | Tur 2 | 1-ci oyun |
| 6-cı gün | 5 fevral 2025 | 15:00 | | 2-ci oyun |
| 7-ci gün | 6 fevral 2025 | 15:00 | | Tay-brek |
| 8-ci gün | 7 fevral 2025 | 15:00 | Tur 3 | 1-ci oyun |
| 9-cu gün | 8 fevral 2025 | 15:00 | | 2-ci oyun |
| 10-cu gün | 9 fevral 2025 | 15:00 | | Tay-brek |
| 11-ci gün | 10 fevral 2025 | 15:00 | Tur 4 | 1-ci oyun |
| 12-ci gün | 11 fevral 2025 | 15:00 | | 2-ci oyun |
| 13-cü gün | 12 fevral 2025 | 15:00 | | Tay-brek |
| 14-cü gün | 13 fevral 2025 | 15:00 | Tur 5<br>Final & 3-cü yer | 1-ci oyun |
| 15-ci gün | 14 fevral 2025 | 15:00 | | 2-ci oyun |
| 16-cı gün | 15 fevral 2025 | 15:00 | | Tay-brek & Bağlanış |

**5.4. Nəzarət vaxtı və tura gecikmə:**

5.4.1. Oyunlar FİDE tərəfindən qəbul edilən elektron lövhə və saatlarla keçirilir.

5.4.2. Hər bir oyunçuya 40 gedişə 90 dəqiqə, qaraların 40-cı gedişindən sonra 30 dəqiqə vaxt verilir. Birinci gedişdən başlayaraq hər bir gedişə 30 saniyə əlavə olunur.

5.4.3. Oyuna gecikmə vaxtı 15 dəqiqədir.

5.4.4. Əgər tur başlayan zaman oyunçu yerində olmazsa, 15 dəqiqədən daha az müddətdə gecikərsə hər oyunda gecikməyə görə 100 AZN cərimə olunur və bu məbləğ onun mükafatından tutulur.

5.4.5. Əgər oyunçu oyunun startından 15 dəqiqədən daha çox gecikərsə bu halda ona məğlubiyyət verilir və heç bir pul cəriməsi nəzərdə tutulmur.

**5.5. Heç-heçə razılaşması:**

5.5.1. Tərəflər qaraların 30-cu gedişindən daha erkən heç-heçə razılaşa bilməzlər.

5.5.2. 30-cu gedişdən daha erkən heç-heçə yalnız mövqenin üçqat təkrarı və ya pat halında mümkündür, bu hal baş hakim və ya baş hakimin müavini tərəfindən təsdiq edilməlidir.

**5.6. Tay-breklər:**

5.6.1. Əgər iki standart vaxt kontrollu oyunda bərabərlik qeydə alınarsa tərəflər arasında tay-brek oyunlar keçirilir.

5.6.2. Cütlük müəyyənləşdikdən dərhal sonra hakimlər tay-brek üçün rəng seçiminə görə püşk təklif edir.

5.6.3. Bütün tay-breklərdə reytinq sıralamasında yuxarı nömrə olan iştirakçı püşkü çəkir.

5.6.4. Seçilmiş rəng rapidin ilk oyununa və Armageddona aid edilir.

5.6.5. Tay-brek günü 2 oyun rapid oynanılır (ağ-qara). Hər bir oyunçuya oyunun sonunadək 25 dəqiqə verilir və 1-ci gedişdən başlayaraq hər bir oyunçuya 10 saniyə əlavə olunur. Əgər burada da bərabərlik qeydə alınarsa Armageddon oynanılır.

5.6.6. Armageddonda oyun 15/10 dəqiqə vaxt kontrolla oynanılır. Yəni, oyunun sonunadək ağ rənglə oynayan şahmatçıya 15 dəqiqə, qara rənglə oynayan şahmatçıya isə 10 dəqiqə vaxt verilir. Ağlar mərhələni adlamaq üçün mütləq qalib gəlməlidir. Heç-heçə və ya qaraların qələbəsi zamanı qaralar matçın qalibi hesab olunur və növbəti mərhələyə vəsiqə qazanır.

**5.7. Mükafatlar:**

5.7.1. Çempionatın ümumi mükafat fondu 60.000 AZN, üstəgəl bonuslar (5.7.3) təşkil edir.

5.7.2. Mükafatlar mərhələlər üzrə aşağıdakı cədvələ uyğun olaraq təsnif olunur:

| Mərhələ | Oyunçu sayı | Mükafat | Mükafatların cəmi |
|---|---|---|---|
| Tur 1 | 10 | 500 AZN | 5.000 AZN |
| Tur 2 | 8 | 1.000 AZN | 8.000 AZN |
| Tur 3 | 4 | 2.000 AZN | 8.000 AZN |
| 4-cü yer | 1 | 3.000 AZN | 3.000 AZN |
| 3-cü yer | 1 | 6.000 AZN | 6.000 AZN |
| Finalçı | 1 | 10.000 AZN | 10.000 AZN |
| Çempion | 1 | 20.000 AZN | 20.000 AZN |
| **Cəmi** | **26** | | **60.000 AZN** |

5.7.3. Klassik partiyalarla (tay-brek oynamadan) mərhələ adlayan şahmatçının mükafatına hər bir mərhələ üçün 500 AZN bonus əlavə olunur.

5.7.4. Azərbaycan çempionu kişilərdən ibarət Azərbaycan milli komandasına vəsiqə qazanır.
5.7.5. Çempionatın yarımfinalçıları Avropa çempionatına vəsiqə qazanır.

**5.8. Oyun şərtləri:**

5.8.1. Təşkilatçı tərəfindən anti-çitinq tədbirləri həyata keçiriləcək (FIDE Handbook A10, see Appendix 1.b).
5.8.2. Baş hakimin icazəsi istisna olmaqla oyun zonasına yalnız oyunçular, hakimlər və təşkilati heyət buraxılır.
5.8.3. Oyunçuların oyun zonasına telefon, texniki və digər elektronik avadanlıq gətirməsinə icazə verilmir.
5.8.4. Oyunu davam edən oyunçu oyun zonasını yalnız baş hakimin icazəsi və ya hakimlərdən birinin müşaiyəti ilə tərk edə bilər.
5.8.5. Bu qaydanın pozulması halında baş hakim həmin oyunçuya məğlubiyyət verə bilər.
5.8.6. Oyunçulardan oyun sonrası media ilə əməkdaşlıq etmələri gözlənilir.
5.8.7. Oyunçular gündəlik olaraq oyun başa çatdıqda kiçik fasilədən sonra oyunların qısa təhlili üçün dəvət olunurlar.

**5.9. Appelyasiya Komitəsi:**

5.9.1. Təşkilatçı tərəfindən 5 nəfərdən ibarət (3 əsas üzv, 2 rezerv) Appelyasiya Komitəsi təşkil olunur.
5.9.2. Oyun başa çatdıqdan sonra 1 saat müddətində appelyasiya müraciəti qəbul olunur.
5.9.3. Appelyasiya müraciəti üçün depozit məbləği 200 AZN-dir. İddia təmin olunarsa məbləğ geri qaytarılır.
5.9.4. Appelyasiya Komitəsinin qərarı sonuncu və həlledicidir.